# Azərbaycan Yazıçılar Birliyinin katibliyində

**Azərbaycan Yazıçılar Birliyinin XIII Qurultayı oktyabrın 26-sı saat 11:00-da öz işinə başlayacaq. Qurultay Azərbaycan Dövlət Akademik Dram Teatrında keçiriləcək. Azərbaycan Yazıçılar Birliyinin dəvətilə Qurultayda Türkiyə, Rusiya, Litva, Pakistan, Gürcüstan, Almaniya, İraq, Belarusdan qonaqlar iştirak edəcək. Oktyabrın 25-i saat 10-da Qurultay Nümayəndələri və qonaqlar Fəxri Xiyabanda yazıçıların məzarlarını ziyarət edəcək, oktyabrın 26-sı saat 9-da Ulu Öndər Heydər Əliyevin məzarını, daha sonra Şəhidlər Xiyabanını ziyarət edəcəklər.**

**Qurultay nümayəndələrinin qeydiyyatı AYB-də oktyabrın 24 və 25-də saat 10-dan 17-ə qədər keçiriləcəkdir.**

**Qurultay nümayəndələrinin siyahısı "Ədəbiyyat qəzeti"nin 22 oktyabr tarixli buraxılışında çap ediləcək.**

**Katiblik ədəbi ictimaiyyətin nəzərinə çatdırır ki, AYB rəhbərliyi Qurultayla bağlı cənab Prezidentə müraciət etmişdir. Hörmətli Prezidentimiz tərəfindən Qurultayın keçirilməsi üçün lazımi vəsait ayrılmışdır. Qurultaya xaricdən gələcək qonaqların təyyarə biletlərini çox əvvəldən almalı olduğumuz üçün müvəqqəti götürdüyümüz kredit qaytarılmışdır.**

**AYB Mətbuat xidməti**

ədəbiyyat qəzeti.- 2022.- 15 oktyabr.- S.1.